


# Səbail rayonu seçiciləri yekdilliklə Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyirlər

11 aprel prezident seçkilərində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin Səbail rayonu üzrə seçki qərargahı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir.

Martın 28-də Səbail rayonu seçiciləri ilə növbəti görüş keçirilib.

300-dən çox seçicinin iştirak etdiyi görüşdə çıxış edən Milli Məclisin deputatı, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və rayon partiya təşkilatının sədri prof. Şəmsəddin Hacıyev Yeni Azərbaycan Partiyasının Lideri və namizədi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2003-cü ildən etibarən ölkə başçısı kimi genişmiqyaslı və çoxşaxəli fəaliyyəti, Onun müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və xalqımızın rifahının ildən-ilə daha da yaxşılaşdırılması istiqamətində apardığı uğurlu daxili və xarici siyasət, ölkəmizdə reallaşdırılan ardıcıl və sistemli siyasi, iqtisadi, sosial islahatlar, Azərbaycanın istər regionda, istər beynəlxalq səviyyədə qazandığı tarixi nailiyyətlər və misilsiz uğurlar haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, müasir Azərbaycanın bugünkü möhtəşəm uğurlarının təməlində cənab İlham Əliyevin Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməsi, eləcə də müdrik, uzaqgörən Liderimizin idarəçilik məharəti, dünya iqtisadiyyatı və siyasətini mükəmməl bilməsi və bütün bu keyfiyyətləri özündə ehtiva edən cəsarətli, düşünülmüş və Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmış uzaqgörən siyasəti dayanır. Məhz bu siyasət nəticəsində Azərbaycan son 15 il ərzində iqtisadi artım tempinə görə dünyanın ən sürətlə və dinamik templərlə inkişaf edən ölkəsinə çevrilib, bu dövr ərzində ölkə ÜDM-i 10 dəfədən çox artıb, dövlətin büdcə gəlirləri 1,2 mlrd. manatdan 21 mlrd. manat məbləğinə qədər yüksəlib, ölkəmizdə sosialyönümlü iqtisadi inkişaf modeli əsasında vətəndaşların rifahının əhəmiyyətli dərəcədə yüksəldilməsinə nail olunub, regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları uğurla icra olunub, gələcək məqsədləri və fəaliyyət planlarını əks etdirən strateji yol xəritələri təsdiq olunub. Nəticə etibarilə, Azərbaycanda əməkhaqqı və təqaüdlərin, sosial müavinətlərin məbləğləri ilbəil artırılıb, işsizlik və yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə azaldılıb, 2 milyona yaxın yeni iş yerləri yaradılıb, gənc, müstəqil dövlətimizin dayanıqlı inkişafı və milli təhlükəsizliyimiz fundamental əsaslar üzərində təmin olunub.





Bu dövr ərzində Azərbaycan cəmiyyətində formalaşan və qibtəolunacaq səviyyədə qərarlaşan ictimai-siyasi və iqtisadi sabitlik, təhlükəsizlik şəraiti, tolerant və multikultural mühit Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin əsasını təşkil edir. Bu gün Azərbaycanda misli görünməmiş və bir neçə il öncə xəyalımızda belə canlandıra bilməyəcəyimiz transmilli layihələr - Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin uğurla istifadəyə verilməsi, 2017-ci ildə Əsrin Müqaviləsinin icra müddətinin 2050-ci ilə qədər uzadılması, transkontinental iqtisadi, siyasi və sosial əhəmiyyət daşıyan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışı, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin və Cənub Qaz Dəhlizinin 99% icrasının tamamlanması, TANAP, TAP layihələri üzrə işlərin tamamlanma ərəfəsində olması məhz İlham Əliyevin siyasi iradəsi, nüfuzu və idarəçilik məharəti nəticəsində həyata keçirilib.

Azərbaycanın gələcək hədəfləri və cənab İlham Əliyevin növbəti Prezidentlik dövründə cəmiyyət həyatının bütün sahələrini - siyasi, iqtisadi, mədəni və sosial inkişafı, eləcə də xarici siyasət sahələrini özündə ehtiva edən platforması haqqında geniş məlumat verən millət vəkili bildirib ki, postindustrial dövrünə qədəm qoyduğumuz və informasiya cəmiyyətinə, bilik iqtisadiyyatına doğru sürətlə inkişaf etdiyimiz bu dövrdə Azərbaycanın dünya siyasəti və iqtisadiyyatında rolu və yeri əhəmiyyətli dərəcədə artıb və möhkəmlənib. İlham Əliyevin rəhbərliyi dövründə milli iqtisadiyyatımıza ümumilikdə 80 mlrd. manatdan çox xarici investisiya cəlb olunub, xarici ölkə iqtisadiyyatlarına 25 mlrd. manatdan çox sərmayə qoyulub. Azərbaycan artıq xarici ölkələrdə özünün "ikinci iqtisadiyyat"ını formalaşdırmaqla beynəlxalq geniş təkrar istehsal zəncirinə qoşulub, dünya gəlirlərindən pay əldə etmək imkanı qazanıb. Diqqətə çatdırılıb ki, İlham Əliyev siyasətinin başlıca hədəfi növbəti Prezidentlik dövründə Azərbaycanı inkişaf etmiş ölkələr sırasına çıxarmaqdan ibarətdir ki, bu da ölkəmizdə qüdrətli iqtisadiyyatın və yüksək rifahın təmin olunması deməkdir.

Təbii ki, bütün bu hədəfləri biz yalnız və yalnız praqmatik Liderimiz İlham Əliyevlə reallaşdıra bilərik, çünki O, ötən dövr ərzində gördüyü genişmiqyaslı misilsiz işlərlə hər bir azərbaycanlının Prezidenti olduğunu sübut edib. Məhz Onun rəhbərliyi ilə bu gün ölkəmizdə müasir müstəqil Azərbaycanın banisi Ümummilli lider Heydər Əliyev siyasəti yaşayır və cəmiyyət həyatımızda, dünyada baş verən proseslərə, müasir dövrün tələb və çağırışlarına uyğun olaraq təkmilləşdirilir, modernləşdirilir və uğurla davam etdirilir. Bu siyasət bizi daha böyük uğurlara, tərəqqiyə və ümumxalq rifahına aparır. Azərbaycan ərazisinə, əhalinin sayına və iqtisadiyyatının həcminə görə kiçik ölkə olsa da, onun İlham Əliyev kimi böyük Lideri, müdrik və uzaqgörən rəhbəri vardır. Biz, daha qüdrətli Azərbaycan və etibarlı gələcəyimiz naminə birmənalı olaraq, Liderimiz ətrafında sıx birləşməli və partiyamızın namizədini 11 aprel günü yekdilliklə dəstəkləməliyik.

Deputat Səbail rayon seçicilərini seçki prosesində, hər zaman olduğu kimi, fəal olmağa, ölkəmizdə gedən möhtəşəm proseslərdə daha yaxından iştirak etməyə və aprelin 11-də mütəşəkkil şəkildə seçki məntəqələrinə gələrək cənab İlham Əliyevə səs verməyə çağırıb.

Çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu, ilk növbədə, seçiciləri gələcək siyasi taleyimizə laqeyd olmamağa və 11 aprel seçkilərində siyasi iradələrini nümayiş etdirməyə çağırıb. 1918-ci ildə Şərqdə ilk demokratik Cümhuriyyət yaradan xalqımızın tarixin süzgəcindən keçib gələn siyasi mədəniyyətə sahib olduğunu diqqətə çatdıran millət vəkili Hikmət Babaoğlu vurğulayıb ki, İlham Əliyevin məharətli daxili siyasəti nəticəsində Azərbaycanda formalaşan intellektual cəmiyyətin bugünkü milli gücü Liderimizin rəhbərliyi ilə dostda pərəstiş, düşməndə vahimə yaradır. Bu uğurlarımızın təməlində Ulu öndər Heydər Əliyevin dövlətçilik məktəbi və azərbaycançılıq ideologiyası dayanır. Müasir dövrün mürəkkəb və ziddiyyətli konyunkturunda xalqların tarix qarşısında dövlətçilik imtahanı verdiyini qeyd edən deputat bildirib ki, müdrik Azərbaycan xalqı müqəddəratımızın həll oldunduğu bütün tarixi məqamlarda ən düzgün qərarı vermək və Liderini düzgün seçmək xüsusiyyəti ilə fərqlənmişdir. Əminik ki, xalqımız 11 aprel tarixində də öz işıqlı gələcəyi naminə ən düzgün qərarı verəcək və müasir Azərbaycanın son 15 ildə qürurla bəhs etdiyimiz bütün nailiyyətlərinin şəksiz memarı olan Liderimiz İlham Əliyevə səs verəcəkdir.

Görüşdə Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti, professor Azər Paşa Nemətov, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru akademik İradə Hüseynova və Dənizkənarı Bulvar İdarəsinin rəis müavini Ağacan Əhmədov gördüyü işlərlə ümumxalq dəstək və etimadını qazanan möhtərəm Prezidentimiz İlham Əliyevin ötən dövr ərzində xalqımızın rifahının yaxşılaşdırılması, ...zərbaycanımızın beynəlxalq sima...nın, nüfuzunun tamamilə dəyişil...əsi istiqamətindəki misilsiz xidmət...rindən, dövlət siyasəti səviyyəsin...ə Azərbaycan elminin, təhsilinin, ...ədəniyyətinin, idmanının, ümumiy...ətlə bütün ictimai-siyasi sahələrinin ...kişafına göstərilən diqqət və qayğı...an danışaraq, bu nailiyyətlərin da...amlı olması üçün seçiciləri partiya...ızın Lideri cənab İlham Əliyevə səs ...ərməyə dəvət ediblər.

Seçicilər adından danışan Dəniz...ənarı Bulvar İdarəsinin əməkdaşları ...ahirə Nəsirova, Məhərrəm Məhər...əmli, Nigar Məmmədova və Aydın ...abbarov ölkəmizdə gedən dinamik ...kişaf və tərəqqi üçün Prezidentimi...ə minnətdar olduqlarını, bu siyasəti ...rəkdən dəstəklədiklərini və 11 aprel seçki günü hamı bir nəfər kimi məntəqələrə gələrək Azərbaycan xalqının ən layiqli namizədi cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Yüksək əhval-ruhiyyə ilə keçən görüşə yekun vuran Ş.Hacıyev bildirib ki, son illərdə beynəlxalq təşkilatlar tərəfindən aparılan bütün reytinq sorğularında Azərbaycan cəmiyyətində cənab İlham Əliyevin reytinqi 90%-dən də yüksək müəyyənləşir. Bu beynəlxalq reytinq göstəriciləri, eləcə də bugünkü tədbirimizdəki bütün çıxışlarda səslənən fikirlər xalqımızın mütləq əksəriyyətinin Yeni Azərbaycan Partiyasının namizədini dəstəklədiyini bariz şəkildə ifadə edir. Qədirbilən Azərbaycan xalqı Prezidentimizlə qürur duyur, çünki cənab İlham Əliyev ötən dövr ərzində Ulu öndər Heydər Əliyev siyasətini məharətlə davam etdirərək, dövlət müstəqilliyimizi daha da möhkəmləndirdi, ictimai-siyasi sabitliyimizin qarantı oldu, sarsılmaz xalq-iqtidar birliyi yaratdı və Azərbaycanı regionun lider dövlətinə və dünyada sayılıb-seçilən, söz sahibi olan ölkəyə çevirdi. Əminik ki, Ali Baş Komandanımızın qətiyyətli siyasəti ilə biz işğal altında olan torpaqlarımızı yaxın gələcəkdə azad edəcək və şanlı Azərbaycan bayrağını ərazi bütövlüyü bərpa olunmuş Vətənimiz üzərində qürurla dalğalandıracağıq! 11 aprel prezident seçkilərində Səbail rayonu seçicilərinin yekdil seçimi cənab İlham Əliyevdir!

# YAP Nərimanov rayon təşkilatında Respublika Veteranlar Şurasının üzvləri və müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüş keçirilib

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatında Respublika Veteranlar Şurasının üzvləri və müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüş keçirilib.

Tədbiri YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin apardığı ardıcıl və sistemli islahatlar, həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin son illərdə istər regionda, istərsə də bütün dünyada qazandığı uğurlardan danışıb. T.Tağıyev müstəqil Azərbaycanın inkişafında müstəsna xidmətləri olan Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yolundan da bəhs edib, YAP-ın monolit birliyi, böyük sosial bazası olan bir partiya olduğunu, Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasına daim etibar etdiyini və dəstəklədiyini bildirib. O, bütün






uğurların davamlı olması üçün hər kəsi 11 aprel seçkilərində partiyamızın Sədri, dövlət başçısı İlham Əliyevə səs verməyə çağırıb.

Respublika Veteranlar Şurasının sədr müavini, polkovnik Cəlil Xəlilov Prezident İlham Əliyevin Azərbaycan Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına yüksək qayğı göstərdiyini vurğulayıb. **"Möhtərəm Prezidentimiz çıxışlarında daim deyir ki, veteranlar, şəhid ailələri daim diqqət və qayğı ilə əhatə olunmalıdırlar. Biz bu diqqət, qayğını həmişə görmüşük. Bu gün dünyada müharibələr, qanlı toqquşmalar mövcuddur. Azərbaycanda isə ictimai-siyasi sabitlikdir. Ölkədə iqtisadi yüksəliş ildən-ilə artır. Azərbaycan artıq regionun lider dövlətinə çevrilib. Regionumuzda heç bir layihə Azərbaycan dövlətinin iştirakı olmadan həyata keçirilə bilmir. Əlbəttə ki, bütün bu uğurlara məhz Prezidentimiz İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində nail olunub. Azərbaycan Müharibə və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq biz möhtərəm Prezidentimiz İlham Əliyev ilə fəxr edirik. Təhlükəsizliyimizin, stabilliyimizin qarantı İlham Əliyevdir. İlham Əliyevin yenidən Prezident seçilməsi Azərbaycanın gələcəyi üçün çox vacibdir",** - deyə C.Xəlilov qeyd edib.

Daha sonra Nərimanov rayon Ağsaqqallar Şurasının sədri Mircəfər Həsənov çıxış edərək, hər zaman olduğu kimi, bu seçki prosesində də Ağsaqqallar Şurası olaraq fəal iştirak edəcəklərini və YAP tərəfindən irəli sürülmüş namizədi dəstəklədiklərini vurğulayıb.

YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurasının sədri Məhəbbət İbrahimova çıxış edərək bildirib ki, Azərbaycan qadını özünü heç vaxt ölkəmizdəki inkişaf proseslərindən kənarda hiss etməyib. Onun sözlərinə görə, qadınların hüquqlarının qorunması, onların sosial vəziyyətinin yaxşılaşdırılması dövlətin əsas prioritetlərindən biridir. M.İbrahimova qeyd edib ki, qadınlar bu il ölkədə keçiriləcək prezident seçkilərində yaxından iştirak edərək xalqın namizədi olan cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə daha sonra YAP Nərimanov rayon təşkilatının sədr müavini Vaqif Novruzov, Veteranlar Şurasının üzvü Zemfira Kərimova, Nərimanov rayon Rus İcmasının rəhbəri Lidiya Hacıyeva və digərləri çıxış edərək vətəndaşları 11 aprel seçkilərində cənab İlham Əliyevə səs verməyə çağırıblar.